Konfransı giriş sözü ilə açan BSU-nun rektoru Kamal Abdullayev iştirakçıları səmimi salamlayıb.

Təhsil naziri Misir Mərdanov çıxış edərək keçirilən konfransın əhəmiyyətini xüsusi qeyd edib və təqdirəlayiq hal kimi dəyərləndirib.

Sonra nazir konfransın işinə uğurlar arzulayaraq dünyanın müxtəlif ölkələrindən gələn alimlərin elmi müzakirələr keçirməsini yüksək qiymətləndirib. Eyni zamanda nazir gələcəkdə bu işi davam etdirməyin məqsədəmüvafiq olduğunu diqqətə çatdırıb.

Konfransda Fransa, Rusiya, Türkiyə, Braziliya, Yaponiya və başqa ölkələrdən gələn qonaqlar, eləcə də ali məktəb rəhbərləri iştirak edib.